

Məlahət Babayeva

# Türk satira ustası Ziya Paşa

Həm şifahi xalq ədəbiyyatı qaynaqlarında, həm də yazılı ədəbiyyatın ilkin nümunələrində gerçəkliyə münasibətdə əsasən öyüd-nəsihət, tərənnüm tipli yazılar üstünlük təşkil etmişdir. Həmin bədii təfəkkür nümunələrilə, əslində, gəncliyə, gələcək nəslə olub-keçənlər, baş verən hadisələr haqqında poetik informasiyalar verilmiş, onların diqqəti dünyanın dərkinə, düzgün, qanunauyğun yaşayış tərzinin qurulmasına yönəldilmiş, həyatda rast gəlinən məhrumiyyətlər, uğursuzluqlar kədərli və nisgilli notlarla dilə gətirilmişdir. Lakin cəmiyyətin inkişafı nəticəsində insanlar arasındakı təbəqələşmənin getdikcə daha aydın nəzərə çarpması ümumxalq nəzərində fərqli yanaşmaları, ziddiyyətli məqamları ortaya qoymuşdur. Qədim və orta əsrlərdə bu cür hallara ictimai-ədəbi münasibət daha çox dini-fəlsəfi mahiyyətdə üzə çıxırdısa, XVIII əsrin sonları və XIX əsrin əvvəllərində ictimai etiraz, tənqid və tədricən satira yaradıcılığı kimi ifadə olunurdu.

XX əsrin əvvəllərində baş verən kəskin ictimai-siyasi hadisələr bədii ədəbiyyatın da öz mövqeyini dəqiqləşdirməsinə imkan verdi. Bədii ədəbiyyat, xüsusən satira seçilmişlərin deyil, geniş xalq kütləsinin, sadə insanların sözünü dedi, onların dərdlərini öz dərdi olaraq yaşaya bildi.



Onu da qeyd etmək lazımdır ki, bu dövrdə türk ədəbiyyatında açıq tənqidlə yanaşı, həcv və təmsil yaradıcılığının da çəkisi çox böyükdür. Odur ki, ədəbi həqiqət naminə etiraf olunmalıdır ki, XIX və XX əsr satirik şeirinin təşəkkül və inkişaf istiqamətləri nə qədər novatorluğa, Avropa dəyərlərinə söykənsə də, kökə, ilkin qaynaqlara, folklor motivlərinə xüsusən, klassik poeziya ənənələrinə daha artıq şəkildə bağlıdır.

Türk satirik ədəbiyyatının görkəmli nümayəndələrindən biri də Ziya Paşadır. Ziya Paşa (1825-1880) adı ilə məşhur olan bu türk ədibinin və siyasətçisinin əsl adı Əbdülhəmid Ziyaəddindir. Ziya Paşa XIX əsrdə Osmanlı dövlətinin ən məşhur xadimlərindən biri olmaqla yanaşı, Tənzimat dövründə ən çox əsərlər yazan sənətkarlardandır. O, Şinasi və Namiq Kamalla birlikdə "qərbləşmə" ideyasını ilk dəfə önə çıxardan Osmanlı ziyalılarındandır. Ziya Paşa, Sultan Əbdüləziz iqtidarından Avropaya qaçaraq Gənc Osmanlılar hərəkatına qatılmış və qəzet nəşr etdirərək dövrünün hakimiyyəti ilə mübarizə aparmışdır. Ziya Paşa vətənə dönəndən sonra müxtəlif valiliklərdə işləmiş və son iş yeri Adanada olmuşdur. Onun:

*"Ayinesi iştir kişinin lafa bakılmaz*
*Şahsın görünür rütbe-i aklı eserinde"*

*"Nuş ile yola gelmeyeni etmeli tektir*
*Tektir ile uslanmayanın haqqı kötekdir"*

kimi beytləri zərbi-məsəl olmuşdur.

Ziya Paşa əsərlərində əsarəti tənqid edərək məşrutəni dəstəkləmişdir. O, qərbləşmə ideyalarının təbliğatçılarından biri kimi Tənzimat ədəbiyyatının əsasını qoyanlardandır. Ziya Paşa Türk ədəbiyyatının öz ənənələrinə sadiq qalmasının təbliğatçılarından olmuşdur. Bundan əlavə o, əsər dilinin xalq dili olması fikrini müdafiəçilərindəndir.

Ziya Paşa, şeirlərində klassik şeir ənənələrindən əsasən istifadə etsə də haqq, ədalət, bərabərlik, hürriyyət kimi mövzuları istifadə edirdi. "Tərci-i Bənd" və "Tərkib-i Bənd" adlı iki şeirində isə ümumbəşəri ideyalardan, fəlsəfədən bəhs etmişdir.

1874-1875-ci illərdə Ziya Paşa türk şairlərinin şeirlərini "Xərabat" adlı üç cildlik ensiklopediyada topladı. Antologiya üçün yazdığı mənzum ön söz - "Muqəddime-i Xərabat" adlı ayrı əsər kimi dəfələrlə çap edilmişdir. Bu ön sözdə Ziya Paşanın divan ədəbiyyatını mədh etməsi Namiq Kamalla münasibətlərinin pozulmasına səbəb olmuş: Namiq Kamal mənzuməyə cavab olaraq "Təxrib-i Xərabat" və "Təqib" adlı əsərlər yazmışdır.

Ziya Paşanın mənzum əsərləri ilk dəfə kürəkəni Həmdi Paşa tərəfindən " Əşar-i Ziya" adıyla, daha sonra isə Süleyman Nazif tərəfindən "Külliyat-ı Ziya Paşa" adı altında bir cilddə toplanmışdır.

Ziya Paşa şeirlərdən əlavə siyasi mövzularda kitablar da qələmə almışdır. "Röya", "Vərasəti-Səltənəti-Səniyyə", "Ziya Paşanın Arzuhalı" adlı kitabları bu əsərlərdəndir. "Röya" siyasi-tənqid səpkidə yazılmış ilk reportaj kitab kimi türk ədəbiyyatı tarixində özünə yer tutmuşdur. "Onun 7 iyul 1868-ci ildə "Hürriyyət" qəzetində nəşr olunmuş "Şeir və inşa" başlıqlı məqaləsi çox böyük marağa səbəb olmuşdur. Belə ki, şair bu məqaləsində nəzm əsərlərində xalq şeirindən faydalanmağı və xalqın anlaya biləcəyi bir dildə yazmağı təbliğ edirdi.

Ziya Paşa "Engizisyon Tarixi" və "Əndülüs Tarixi" adlı iki tarix kitabını fransız dilindən türk dilinə tərcümə etmişdir. Bunlardan başqa, o, Molyerin "Xəsis" əsərini də türk dilinə tərcümə edərək türk ədəbiyyatında da mənzum dram əsərlərinin yaranmasına səbəb olmuşdur. Jan Jak Russonun "Emil" əsəri də onun tərcümələri arasındadır.

Bundan əlavə, Ziya Paşanın Əli Paşanı həcv etmək üçün yazdığı "Zəfərnamə" adlı mənzuməsi məşhurdur. Bu həcv nəzm və nəsrlə yazılmışdır. Üç hissədən ibarətdir: qəsidə, təxmis, şərh.

"Dəftəri Amal" əsərində isə Ziya Paşa əsasən uşaqlıq xatirlərini qeyd etmişdir. Bu əsər J.J. Russonun "İftiralar" adlı əsərindən təsirlənərək yazılmışdır, burada da qərbçilik meyilləri hiss olunur. Bundan əlavə, türk ədəbiyyatında ilk memuar bəhs edən əsər kimi də tarixə düşmüşdür.

Məlum olduğu kimi, Ziya Paşa macəra dolu bir həyat sürmüşdür. Osmanlı sarayında mənsəb sahibi olmuş, dövrünün sultanları ilə söhbət etmişdir. Amma ölkəsindəki idarəçiliyi qəbul etmədiyi üçün Avropada Yeni Osmanlılar Cəmiyyətinə qatılmışdır. O, həmin dövrdə "Zəfərnamə" kimi əsərində sədrəzəm Əli Paşanı tənqid edirdisə, sonralar "Tərkib-i Bənd" adlı əsərində də bacarıqsız dövlət adamlarını, alimləri satira atəşinə tutmuşdur:

*Yıldız arayıp gökte nice turfa müneccim*
*Qaflet ile görmez kuyuyu reh-güzerinde.*

Yəni-Bir çox savadsız münəccim göydə ulduz axtararkən qəflətə düşərək yollarındakı quyunu görməzlər.

Gördüyümüz kimi Ziya Paşa bu beytlə astronomiya elmi ilə məşğul olan alimləri tənqid etmir. Şairin əsl amalı bəzi insanların onlardan gözlənilən işi görmək əvəzinə, həyata keçməyi mümkün olmayan boş xəyalların dalınca qaçmaları və gülünc vəziyyətə düşmələrini göstərməkdir.

Ziya Paşa, vəzifədən istifadə edən, öz mənafeyini güdən rəhbər işçiləri də tənqid atəşinə tuturdu. O, qeyd edirdi ki, şəxsi mənfəətinə görə xalqa zülm edən, hətta dövlətin parçalanmasına, çökməsinə göz yuman belə insanlar hər dövrdə mövcud olmuşdur. Dövlətini və xalqını soyan bu insanlar bəzən elə nüfuz sahibi olarlar ki, onları çoxları şərəfli və vətənpərvər zənn edər. Buna görə də Ziya Paşa, hər toplumda, hər dövrdə rast gəlinən bu acı reallığı aşağıdakı kimi ifadə etmişdir:

*Milyonla çalan mesned-i izzette ser-efraz*
*Bir neçə quruşu mürtekibin cay-ı kürektir.*

Yəni, milyonları talan edənlər yüksək və şərəfli mövqelərdə baş tacı edilir; bir neçə quruşu oğurlayan oğru isə kürək (qamçı) cəzasına layiq olar.

Şair, öz şeirlərində insanları yalnız xarici görünüşlərinə, soyköklərinə görə deyil, daxili keyfiyyətlərinə görə dəyərləndirilməli olduğunu söyləyirdi. Çünki hər hansı bir qiyafətlə alim, zabit, xanım olmaq mümkün deyil. Bu keyfiyyətlərə insan mənən sahib olur:

*Bed-asla necabet mi verir hiç üniforma*
*Zer-daz palan vursan eşek yine eşektir.*

Bu beytdə də deyilir ki, əsil-nəcabətsiz birinə uniforma şəxsiyyət gətirməz; uzunqulağa qızıl işləməli səmər də vursan yenə də uzunqulaqdır.

Şair, "Tərkib Bənd"in onuncu bəndində sosial problemlərə toxunmuşdur. Bu beytdə mövzu Qərb təqlidçiliyi, milliyyətindən üz döndərmək, öz milli mənsubiyyətini kiçik görərək qeyri milliyyətlərə şikayət etmək, xainləri və talançıları qorumaq kimi mənfi məqamlar tənqid olunmuşdur:

*İqbal için ahbabı siayet yeni çıktı*
*Bilmez idik evvel bu dirayet yeni çıktı.*

Bu beytdə də - Yüksək mövqelərə çatmaq üçün dostlarını tənqid etmək yeni çıxdı; öncədən bilməzdik, bu cür hünər və bacarıq yeni çıxdı - deyir şair.

Dahi şairimiz M.Ə.Sabir də Ziya Paşanın yaradıcılığını yüksək qiymətləndirmiş və onun "Tərkib-i Bənd" şeirinə nəzirə yazaraq "Naəhl olana mətləbi andırmaq olurmu?!" satirasını yazmışdır:

*Bizlərdə yox idi belə adət, - yenə çıxdı,*
*Övrətlərə tədrisi-kitabət yeni çıxdı,*
*İslamə xələl qatdı bu bidət, yeni çıxdı.*

Ümumiyyətlə, Ziya Paşanın əsərlərini tədqiq edərək belə qənaətə gəlmək olur ki, o, türk Divan ədəbiyyatının son təmsilçilərindən biri olmuşdur. Nəzirəçilik ənənələrini davam etdirmiş: xüsusilə də Bağdadlı Ruhiyə etdiyi nəzirəsiylə diqqət çəkə bilmişdir. Onun türk ədəbiyyatına gətirdiyi düşüncə tərzi də yenidir. Ziya Paşanın fəlsəfi əsərlərində realizm, hisslərini ifadə etdiyi əsərlərdə isə romantizm daha güclüdür. Ziya Paşa Qərb ədəbiyyatına meylli olsa da, əsasən xalq ədəbiyyatı ruhunda əsərlər yazmışdır. Bundan əlavə şair, əsərlərini əruz vəznində də yazmışdır ki, bu da onun klassik şeir ənənələrini də qoruyub saxlamağa üstünlük verməyindən xəbər verir.

Ziya Paşa Türk satira ədəbiyyatının ölməz sənətkarlarındandır. Onun satiralarında əsarətə, haqsızlığa, cahiliyə və başqa mənfi ünsürlərə tənqid yer alsa da, elm, mənəviyyat, azadlıq və başqa yüksək amal və keyfiyyətlər də tərənnüm olunmuşdur.